

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 22 (21.174)

3 fevral 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycanda gedən sürətli inkişaf proseslərindən məmnunluq ifadə olundu, ölkədə müasir infrastruktur və yeni sənaye sahələrinin yaradılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən işlərin önəmi qeyd olundu.

Söhbət zamanı Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli əlaqələrin inkişafından danışıldı, Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələr aparılması baxımından əhəmiyyəti qeyd olundu.

## Muzeylər ziyarət olunur



Tarixi keçmişimizə və görkəmli şəxsiyyətlərin fəaliyyətinə işıq tutan muzeylər milli irsin öyrənilməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muzeylər bizim tariximizi, mədəniyyətimizi özündə qoruyub gələcəyə daşıyır. ...Lakin iş muzeylərin yaradılması ilə bitmir, onların daim zənginləşdirilməsinə, tamaşaçıların muzeylərə cəlb olunmasına da ciddi diqqət yetirilməlidir".*** Elə bu məqsədlə muxtar respublikamızda fəaliyyət göstərən muzeylərə mərkəzi icra hakimiyyəti orqanlarının, eləcə də digər təşkilat və qurumların əməkdaşlarının ekskursiyaları artıq bir ənənə halını almışdır.

Yanvarın 31-də "Muzey günləri" çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Heydər Əliyev Muzeyində olmuşlar. Məlumat verilmişdir ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılmış və 1999-cu il mayın 10-da fəaliyyətə başlamışdır. Bu gün Azərbaycan Respublikasında xalqımızın böyük oğlu Heydər Əliyevin adını daşıyan 50-dən çox muzey və mərkəz fəaliyyət göstərir. Bunlar içərisində Naxçıvandakı Heydər Əliyev Muzeyi xüsusi yer tutur. Muzey ümummilli liderin sağlığında fəaliyyətə başlamışdır. Muzeydə ulu öndərin həyatının müxtəlif dövrlərinə həsr olunmuş eksponatlar, eləcə də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qəbul etdiyi müxtəlif tarixi sənədlər toplanmışdır. Hazırda muzeydə 4500-dən çox eksponat vardır. İndiyədək muzeyi 250 mindən çox tamaşaçı ziyarət etmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivləri də Heydər Əliyev Muzeyində olmuşlar. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinin kollektivləri Açıq Səma Altında Muzeydə, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyində, İqtisadiyyat və Sənaye, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları Dövlət Bayrağı Muzeyində, Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyində, Rabitə və Yeni Texnologiyalar, Kənd Təsərrüfatı və Səhiyyə nazirliklərinin kollektivləri isə Ədəbiyyat Muzeyində olmuşlar.

Qeyd edək ki, yanvarın 31-də muxtar respublikanın rayonlarındakı idarə, müəssisə və təşkilatların əməkdaşları da müvafiq olaraq rayon mərkəzlərində yerləşən Tarix-Diyarşünaslıq muzeylərini ziyarət etmişlər.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda Gənclər Günü qeyd edilib



***Fevralın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "Duzdağ" otelində 2 fevral – Gənclər Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən gənclər siyasətindən, bu sahədə əldə olunan nailiyyətlərdən söhbət açıb.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda bütün sahələrdə olduğu kimi, gənclərlə iş sahəsində də əsaslı dönüş yarandı. Ulu öndərin 1995-ci ildə irəli sürdüyü Gənclər Forumu ilə bağlı təşəbbüsündən sonra 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumu keçirildi. Bir il sonra ilk forumun iştirakçılarının bir qrupu ilə görüşən xalqımızın böyük oğlu Heydər Əliyev əsas diqqəti keçən bir il ərzində görülmüş işlərin təhlilinə, gəncliklə bağlı əsas problemlərin həllinə yönəltdi. Ulu öndərin həmin gün imzaladığı sərəncamla fevralın 2-si Gənclər Günü elan edildi.

"Bu gün dövlətin apardığı gənclər siyasəti keyfiyyətcə yeni mərhələdə davam etdirilir. Ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi dövlət gənclər siyasəti nəticəsində gənclərimiz cəmiyyətimizin inkişafında fəal sosial təbəqəyə çevrilib", – deyən Azad Cabbarov bildirib ki, muxtar respublikada da gənclərin yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir.

Qeyd olunub ki, gənclərin yüksək səviyyədə təhsil alması, intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə muxtar respublikada gənclik mərkəzləri, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, yeni orta məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və saymaqla bitməyən digər obyektlər tikilərək, yaxud əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, bu gün dövlət gənclər siyasəti muxtar respublikada uğurla həyata keçirilir. Bunun nəticəsində gənclər muxtar respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında daha da fəal iştirak edir, gənc istedadlara dövlət qayğısı artırılır. Bu gün gənclər milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, yeni ideyaların təşəbbüskarı, dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşır və böyük nailiyyətlər əldə edirlər.

"2014-cü ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilib, Gənclər Fondunun fəaliyyəti təmin olunub. Bütün bunlar gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır", – deyən Məmməd Babayev əlavə edib ki, muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən birini də gənclərin sosial problemlərinin həlli, xüsusilə də mənzil şəraitinin yaxşılaşdırılması təşkil edir.

Sonra muxtar respublikanın ictimai həyatında fərqlənən gənclər mükafatlandırılıblar.

Tədbir konsert proqramı ilə davam etdirilib. Tanınmış müğənnilər Günel Məhərrəmova və Günay İbrahimlinin ifa etdikləri musiqi nömrələri gənclərə xoş anlar yaşadıb.

**Rauf ƏLİYEV**




## İctimai yerlərdə miqrantlar üçün videoçarxların nümayişinə başlanılıb

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən ictimai yerlərdə qurulan monitorlarda yerli və əcnəbi vətəndaşların maarifləndirilməsi məqsədilə videoçarxların nümayişinə başlanılıb.***

Xidmətin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsinin müdiri Aysel Əliyevanın verdiyi məlumata görə, xidmətin əməkdaşları tərəfindən HD formatda 2 videoçarx hazırlanıb. Videoçarxlarda qanunsuz miqrasiyanın yolverilməzliyi və fəsadları, qanuni miqrasiyanın faydaları, miqrantların yaşadığı yer üzrə qeydiyyatının vacibliyi məsələləri öz əksini tapıb. Bundan başqa, muxtar respublikada olmaq, yaşamaq, əmək fəaliyyətinin qanuniləşdirilməsi üçün hər bir əcnəbi vətəndaşın Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə müraciət etməsinin vacibliyi də videoçarxlarda yer alıb.

Şöbə müdiri onu da bildirdi ki, Dövlət Miqrasiya Xidməti fəaliyyətə başladığı ilk gündən etibarən miqrasiya sahəsində baş verən yeniliklərin və mühüm tədbirlərin ictimaiyyətə çatdırılması işində daim operativlik nümayiş etdirib. Ötən müddətdə vətəndaşların məlumatlandırılması və maarifləndirilməsi məqsədilə mütəmadi tədbirlər həyata keçirilib. Belə ki, ictimaiyyətin miqrasiya sahəsində maarifləndirilməsi məqsədilə xidmətin əməkdaşları muxtar respublikanın müxtəlif bölgələrinə ezam olunur, maarifləndirici tədbirlər keçirilir. Bundan başqa, sərhəd-keçid məntəqələrində elektron məlumat köşkləri yerləşdirilib. Bu köşklər üç dildə – Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin bu üç dildən onlara münasib olan birində "Sual-cavab" xidmətinə, həmçinin qurumun elektron ünvanlarına onları maraqlandıran məsələlərlə bağlı müraciət etmələri və vaxtında hüquqi yardım almaları üçün lazımi təşkilati tədbirlər görülüb.

**Səbuhi HÜSEYNOV**

# Kənd təsərrüfatı ili









*Ötən əsrin 80-ci illərinin sonlarında ölkəmizdə baş verən hadisələri görənlər yaxşı xatırlayırlar ki, ermənilərin əsassız torpaq iddiaları ilə başlayan münaqişə həyatımızın bütün sahələrini iflic halına saldı. Muxtar respublikaya isə daha ciddi ziyanlar dəydi. Kommunikasiya xətləri kəsildi, mərkəzlə gediş-gəliş yolları bağlandı. Bu isə doğma Azərbaycandan ayrı düşmüş Naxçıvana bu yol vasitəsilə ən zəruri tələbat məhsullarının gətirilməsinin qarşısını aldı. Elektrik enerjisiz, yanacaqsız qalan naxçıvanlılar üz tutdular muxtar respublikada onsuz da çox az bir ərazini əhatə edən yaşıllıq zolaqlarına və meyvə bağlarına. Qısa bir zaman ərzində yüz illərlə yaşı olan qiymətli meşə və meyvə ağacları kəsildi.*

*Dövlət proqramı necə icra olunur?*

## Meyvəçiliyin inkişafı yeni müstəviyə qədəm qoyub



Minbir arzu ilə əkdikləri, öz zəhmətləri ilə boya-başa çatdırdıqları ağacları kəsmələrində naxçıvanlıları qınamaq da olmazdı. Həmin illərin qışı da çox sərt gəlmişdi. O da taleyin işi idi ki, ulu öndərimiz Heydər Əliyev Naxçıvana qayıtdı. Tezliklə bu prosesə son qoyuldu. Hər ilin yaz və payız iməciliklərində "Hərəyə bir ağac əkək" şüarı ilə naxçıvanlılar ağacəkmə kampaniyasına başladılar və bu kampaniya bu gün ümumxalq tədbirinə çevrilib. Ötən dövrdə həyata keçirilən ekoloji tədbirlər nəticəsində isə muxtar respublikanın yaşıllıqlarla örtülü sahəsi artaraq 12 faizə çatdırılıb. Mühafizə olunan yeni təbiət ərazilərinin yaradılması da ulu öndərin ekoloji siyasətinin uğurlu davamıdır. Bu siyasətin həyata keçirilməsinin nəticəsidir ki, 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, 2005-ci ildə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı yaradılıb. Ölkə Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır.

Həyata keçirilən tədbirlər sırasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" mühüm əhəmiyyət daşıyan dövlət sənədidir. Dövlət proqramının qəbul edilməsinin başlıca məqsədi torpaq-iqlim xüsusiyyətlərinə uyğun, yüksək istehlak qabiliyyətinə malik meyvə bağlarının əkilməsindən və unudulmaqda olan məhsuldar sortların bərpasından, müasir standartlara cavab verən texnologiyalar əsasında yeni meyvə və tərəvəz emalı müəssisələrinin yaradılmasından ibarətdir.

Qeyd etmək lazımdır ki, muxtar diyarımızın bütün bölgələrində qiymətli meyvə sortlarının yetişdirilməsi üçün məhsuldar torpaq sahələri var. Bununla yanaşı, çay kənarlarında, dağ yamaclarında meyvə bağları salınması imkanları da genişdir. Bu imkanlardan Şahbuz rayonunda da səmərəli istifadə olunur. Rayonda hətta terraslarda əkilmiş bağlar bu sahənin inkişafına ciddi önəm verildiyini göstərir. Məlumat üçün bildirək ki, bu bölgəmiz bağlar diyarı Ordubad rayonundan sonra muxtar respublikada meyvəçiliklə daha çox məşğul olan yurd yeridir. Tarixən burada güclü meyvəçilik təcrübəsi qazanılıb, bağlar salınıb. Bu bağlarda yetişdirilən meyvələrin səsi-sorağı hər yana yayılıb.

Bununla bağlı yazı hazırlamaq məqsədilə Şahbuz rayonunda olarkən aqronom-fenoloq Qaşdar Əliyevlə görüşdük. Maraqlı söhbətimiz oldu:

– Tarixən Şahbuzda meyvəçilik daha çox üstünlük verilən təsərrüfat sahələrindən biri olub. Çünki dağlıq ərazidə yerləşən bölgələrdə təmiz hava və su, torpağın münbitliyi meyvəçiliyin inkişafında başlıca amillərdir. Belə ünvanlarda yüz illər boyu bu amillərdən səmərəli istifadə olunub, növbənöv meyvələr yetişdirilib. Bu cəhətdən Şahbuz rayonu da istisna deyil. Keçilidə Hacı Əli, Külüsdə Hacı Müslüm, Güney Qışlaqda Ənnağı kişi kimi bağbanların saldıqları bağlar indi də durur. Onların yetişdirdikləri meyvələri bir il zədələnmədən saxlamaq olurdu. İndi də onların yolunu davam etdirənlər var. Yeni nəsil bağbanlar rayonda alma, heyva, armud, zoğal, gilənar, şaftalı, albuxara, alça, innab, tut, badam və başqa meyvələrin sortlarını unudulmağa, itib-batmağa qoymurlar.

Qaşdar müəllim deyir ki, təbiət ən böyük bağbandır. Bəzən güclü qar bu ağacların budaqlarını qırıb sındırsa da, ağaclar pöhrələyərək yenidən cavanlaşırlar. Həmin ağaclara yüksək səviyyədə qulluq göstərəndə daha tez bar verirlər. İndi düz-dünya meyvə ilə doludur. Sərhədlər açıldığı üçün lap elə dünyanın o başından tropik meyvələrdən kivi, banan, ananas, turunc, hər cür alma, armud meyvələri kəndlərədək daşınıb satılır. Lakin yerli meyvə ağaclarının barını yeyəndə ağac əkmiş xeyirxah insanların ruhuna rəhmət oxunur. İnsan elə bil öz-özünə suallar yağdırır: bəs məndən nə nişanə qalır? Ona görə də çalışırsan ki, sən də bir ağac əkib, özündən sonra yadigar canlı abidə yaradasan. Belə nişanə, yadigar, yüzillik ağacların sorağı məmləkətimizin çox yerlərinə yayılıb. Xülasə, belə deyirlər ki, kim çox ağac əkirsə, Tanrı həmin şəxsə bir o qədər də uzun ömür bəxş edir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə qəbul edilmiş dövlət proqramı meyvəçiliklə məşğul olanların, necə deyərlər, əl-qolunu daha geniş açıb. Bu hesaba rayon ərazisində meyvə bağlarının sahəsi daha da genişləndirilib.

Rayon İcra Hakimiyyəti aparatının əməkdaşı İmran Məmişov deyir ki, dövlət proqramında Şahbuz rayonu ərazisində də müəyyən işlərin görülməsi nəzərdə tutulub. Rayonun iqlim şəraitinə uyğun, yüksək məhsuldarlığa malik unudulmuş (aborigen) meyvə sortlarının bərpa olunması, eləcə də meyvə əkinləri sahəsində yüksək məhsul istehsalına nail olmaq üçün ixtisaslı kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması kimi vəzifələr tapşırılıb. Bölgənin torpaq-iqlim şəraitinə asan uyğunlaşan meyvə sortlarının yetişdirilməsi üçün tingçilik təsərrüfatlarının yaradılması, meyvə bağlarının salınması, meyvə və tərəvəzin konservləşdirilməsi sahəsində təcrübənin öyrənilməsi istiqamətində işlər uğurla davam etdirilir. Yerli iqlim və relyefə uyğun tezyetişən meyvə sortlarından ibarət bağların salınması, torpaq və iqlim xüsusiyyətləri nəzərə alınmaqla meyvəçiliyin yerli şəraitə uyğun inkişaf etdirilməsi, torpaqların münbitliyinin artırılması ilə əlaqədar yerlərdə mütəmadi olaraq keçirilən maarifləndirici tədbirlər nəticəsiz qalmayıb.

"Yüksək reproduksiyalı məhsuldar tinglərlə təminatı yaxşılaşdırmaq məqsədilə təchizat bazasının yaradılması, torpaqların münbitliyinin yaxşılaşdırılması, şoran, şorakət və eroziyaya uğramış torpaqların əkin dövriyyəsinə qaytarılması üçün rayonda həmin ərazilərin xəritələri hazırlanıb və torpaq mülkiyyətçilərinə lazımi məsləhətlər verilib. Proqram qəbul olunan 2012-ci ildə rayonun Kolanı kəndi və Şahbuz şəhəri ərazisində 8 hektar sahədə cəviz, 6 hektar sahədə alma, 9 hektar sahədə ərik və badam, bir o qədər sahədə tezyetişən albalı və armud bağı, 2013-cü ildə Şahbuz şəhəri, Daylaqlı, Ayrınc və Sələsüz kəndləri ərazisində 12,4 hektar sahədə armud, alma, şaftalı və ərik bağları, 2014-cü ilin yaz əkini kampaniyasında Daylaqlı və Sələsüz kəndləri ərazisində 16,9 hektar sahədə ərik, alma, badam və gavalı əkilməklə, ümumilikdə, yeni əkilən bağların sahəsi 60,9 hektara çatdırılıb", – deyən İmran Məmişov onu da vurğuladı ki, ötən dövr ərzində meyvə və tərəvəz məhsullarının saxlanılması məqsədilə Şahbuz şəhərində 300 ton tutumu olan 3 soyuducu anbar tikilib. Üç meyvəçilik təsərrüfatı yaradılıb. Bu istiqamətdə işlər davam etdirilir.

Göründüyü kimi, proqramdan irəli gələn vəzifələrin yerinə yetirilməsinə Şahbuz rayonunda ciddi önəm verilib. Bu səbəbdəndir ki, bağlardan 2014-cü ildə 4718 ton meyvə tədarük olunub.

Dövlət proqramının icrası 2015-ci ildə başa çatır. Dörd ildə həyata keçirilən tədbirlər, əldə olunan nəticələr sərfəli təsərrüfat sahəsi olan meyvəçiliyin yeni müstəvidə inkişafına təkan verib. Bu da belə qənaət yaradır ki, gələcək illərdə bu sahədə daha böyük uğurlara nail olunacaq.

✍ **Muxtar MƏMMƏDOV**

## Kənd təsərrüfatının inkişafı iqtisadi təhlükəsizliyin mühüm şərtidir

*Əhalinin davamlı olaraq keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına yönəlmiş dövlət siyasəti hazırda insan inkişafı naminə həyata keçirilən işlərin əsas istiqamətlərindən biridir. Ölkənin ərzaq bazarının inkişafı ilə bərabər, insanların sağlamlığı və ömür uzunluğu, gələcək nəsillərin həyatının təhlükəsizliyi də məhz indidən bu sahədə görülmüş işlərin keyfiyyətindən çox asılıdır. Odur ki, kənd təsərrüfatı sahəsində verilən hər bir qərar, görülən hər bir iş keçmiş dövrlərdən tutmuş müasir texnoloji tərəqqi dövrünədək həmişə aktuallığını qoruyub saxlayıb.*

2015-ci il ölkəmizdə, eləcə də muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan olunub. Şübhəsiz, Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müasir sosial-iqtisadi inkişaf səviyyəsində kənd təsərrüfatı da yeni bir inkişaf mərhələsinə qədəm qoyub. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 2014-cü ildə Naxçıvan Muxtar Respublikasında 355 milyon 157 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da 2013-cü ildəki müvafiq göstəricidən 6,1 faiz çoxdur. Ötən il muxtar respublikada tələbatdan çox istehsal edilmiş 95 milyon ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları, xüsusilə də meyvə və tərəvəz məhsulları xarici bazarlara ixrac olunub. Bununla yanaşı, kənd təsərrüfatında keyfiyyət göstəricilərinin davamlı olaraq artırılması, sahənin müasir aqrar elminin tələblərinə və Naxçıvan Muxtar Respublikasının torpaq, su və iqlim ehtiyatlarının xüsusiyyətlərinə görə inkişafının təmin olunması günün aktual məsələsi kimi qalmaqdadır. Bu gün Naxçıvan Muxtar Respublikası 20 il əvvəlki kimi az qala yüz faiz idxaldan asılı olan bir regiondan artıq hazır məhsul ixracatçısına çevrilib. Lakin bu ixrac məhsulları içərisində sənaye mallarının üstünlük təşkil etməsi kənd təsərrüfatı sahəsində qarşıda işlərin çox olduğunu göstərir. Halbuki Naxçıvan torpağı keçmişdə yaxın regionda yüksəkkeyfiyyətli meyvə və tərəvəzi, heyvandarlıq və arıçılıq məhsulları ilə tanınıb. İndinin özündə də hər il Naxçıvandan kənara sifarişlə tonlarla belə məhsullar daşınır.

Kənd təsərrüfatı dedikdə yaz-qış demədən çəkilən minbir zəhmət, nemətlər tarladan süfrəyə gələnədək bir-birini tamamlayan çox sayda işlər başa düşülür. Aqrar sektorda bitkiçilik və heyvandarlıq məhsulları istehsalı, onların emalı, saxlanması və satışının uzunmüddətli dövr üçün kompleks şəkildə həll olunması, burada iqtisadi mənafelərimizin düzgün tənzimlənməsi, yerli əhalinin iqtisadi və ekoloji maraqlarının qorunması, daxili bazarın maraqlarının mühafizə olunaraq istehsal olunan məhsulların dünya standartları səviyyəsində ixracı üçün lazımi şərait yaradılması qarşıda duran mühüm vəzifələrdəndir. Bundan başqa, aqrar sahədə, xüsusən heyvandarlıq və maldarlıqda yeni texnologiyaların tətbiqi də öz aktuallığını qorumaqdadır.

Torpaqlardan səmərəli istifadə məsələləri bu gün aqrar elmin qarşısında duran əsas vəzifələrdəndir. Əvvəllər torpaqların məhsuldarlığı, ilin bərəkəti haqqında ağsaqqalların söhbətlərinə çox qulaq asmışıq. O dövrdə hələ aqronom, baytar tapılmayanda dədə-babadan gələn yüzillərin təcrübəsi ilə insanlar kəndin hansı ərazisində, ilin hansı fəslində nə əkiləcəyini, nə zaman biçiləcəyini əzbərdən bilir, bircə dəfə baxmaqla xəstələnmiş heyvanın dərdini tapır, dərmanını deyirdilər. Lakin bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da zaman öz sözünü deməkdə, elmi nəticələr əsasında işlər təşkil olunmaqdadır. Başqa sözlə, müasir kənd təsərrüfatı dedikdə yalnız dədə-baba qaydaları ilə təkcə torpaqdan səxavət ummaq deyil, eyni zamanda insanın ağlı və yeni texnikanın gücü ilə bərabər, becərilən yüz minlərlə hektar bağ-bostan, ərsəyə gətirilən barlı-bərəkətli nemətlər başa düşülür. Bu sahədə elmi yeniliklərin, innovasiyaya əsaslanan, mütərəqqi texnologiyanın tətbiqi torpaq və su resurslarından səmərəli istifadəyə, ərzaq təhlükəsizliyinin və iqtisadi təhlükəsizliyin təmin olunmasına imkan verir. Başqa sözlə, ərzaq məhsulları ilə etibarlı təminatla bərabər, ölkənin valyuta vəsaitlərinin də qorunmasına yönəlmiş inkişaf strategiyası kənd təsərrüfatının inkişafı üçün də mühüm şərtdir.

Bütün bunlar ölkəmizin iqtisadiyyatının şaxələndirilməsi və Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafına yönəldilmiş mühüm dövlət proqramlarının uğurlu icrası istiqamətində görülmüş işlərin əsas qayəsini təşkil edir. Hələ neçə illər bundan əvvəl həyata keçirilmiş məqsədyönlü işlər nəticəsində hazırda blokada şəraitində yaşayan Naxçıvan da daxil olmaqla bütün ölkəmizdə ərzaq təhlükəsizliyi tam təmin olunub. Artıq bütün ölkəmizdə ən zəruri ərzaq məhsulları ilə uzunmüddətli təminat tam dövlət nəzarətindədir. Lakin ərzaq təhlükəsizliyinin iqtisadi təhlükəsizlik hesabına həll olunması da uzunmüddətli perspektiv üçün ağlabatan deyil. Başqa sözlə, yalnız öz istehsalı hesabına bir neçə illik taxıl ehtiyatının yaradılması və bundan sonra yerli imkanlar hesabına istehsal oluna biləcək, ancaq bunun yerinə idxal yolu ilə məhsulların süfrəmizə gətirilməsi qiymətli valyuta ehtiyatlarımızın tükənməsi, iqtisadi təhlükəsizliyimizin zəifləməsi deməkdir. Halbuki həmin valyuta ilə geniş ərazilərdə yeni bağlar salınar, suvarma sistemləri qurular, yeni kənd təsərrüfatı texnikası, damazlıq malqara, dərmanlar alınar, emal müəssisələri yaradılar. Yaxın keçmişlə müqayisədə muxtar respublikada bu sahədə də görülən işlər az deyil. Belə ki, təkcə "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində yaradılmış istixana kompleksləri sayəsində ilin bu vaxtında marketlərimiz "Naxçıvan bağları"nın təzə tərəvəzləri ilə tam təmin olunub. Göründüyü kimi, tək bir sahədəki sahibkar təşəbbüsü region iqtisadiyyatına nə qədər töhfə verib, nə qədər yeni iş yeri yaradılıb.

Kiçik bir yazıda sənaye ilə birlikdə iqtisadiyyatın iki əsas sahəsindən biri olan kənd təsərrüfatı ilə bağlı qənaətimizi paylaşdıq. Əlbəttə, muxtar respublikamızda sahənin mütəxəssisləri vardır və bu sahənin elmi yükünü daşıyan insanların qiymətli fikirləri oxucularımız, eləcə də kənd təsərrüfatından öz çörəyini çıxaran zəhmət adamları üçün dəyərli olacaqdır. Qarşıda hələ bütöv bir "Kənd təsərrüfatı ili" vardır və bu dövr ərzində görüləcək bütün işlər, söylənilən bütün fikirlər qarşıdakı növbəti onilliklər üçün yaddaqalan uğurlu başlanğıc olacaqdır.

✍ **Əli CABBAROV**




## Azərbaycan xalqının məğlubedilməzlik simvolu

# Əlincəqala



***Azərbaycanın müdafiə qalaları içərisində özünəməxsus yeri olan Əlincəqala Culfa rayonunun Xanəgah kəndinin qərb tərəfində, Əlincəçayın sağ sahilində, strateji cəhətdən çox əlverişli bir mövqedə, vulkanik mənşəli yüksək (1811 m) sıldırım dağın üzərində yerləşir. Möhkəm divarlar və bürclərlə əhatə olunan qala uzunmüddətli müdafiə şəraitində qalaya sığınanları ərzaq və su ilə təmin etmək imkanına malik idi. Orada vaxtilə ilxı və mal-qara saxlamaq, 600-ə qədər döyüşçünü öz atı və başqa hərbi sursatı ilə birlikdə yerləşdirmək mümkün idi.***

Qalanın yerləşdiyi dağın sıldırım olması və möhkəm divarları onu sarsılmaz müdafiə istehkamına çevirmişdi. Qalaya yalnız qərb və şərq tərəfdən qalxmaq mümkün idi. Bu yolların üstündə vaxtilə mühafizə məqsədilə tikilmiş qarovulxanalar, səngərlər və bürclər olmuşdur. Müdafiəçiləri su ilə təmin etmək məqsədilə qalanın müxtəlif yerlərində, qaya üzərində 15-ə yaxın su hovuzu qazılmış, dağın yuxarı hissəsində isə qaya üzərində xüsusi arxlar çapılmışdır. Dağın zirvəsindən axan yağış və qar suları həmin arxlarla daş hovuzlara toplanırdı.

Əlincəqala, əsasən, üç geniş sahədən ibarətdir: şərq, şimal-qərb, cənub-qərb. Birinci sahədən ikinci və üçüncü sahələrə qalxmaq üçün daş pillələr düzəldilmişdir. Qalanın kiçik bir şəhərciyi xatırladan yuxarı hissəsində bişmiş kərpicdən tikilmiş çoxlu yaşayış və ictimai binalar olmuşdur. Bu binalar təbii qüvvələrin təsirindən və müharibələr nəticəsində dəfələrlə dağılmış və yenidən bərpa edilmişdir.

"Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin elmi katibi, Naxçıvan Dövlət Tarix Muzeyinin yaradıcılarından biri olan M.Mirheydərzadənin 1930-cu ildə verdiyi məlumatdan aydın olur ki, qalanın üstündə bir kitabə olmuşdur. Təəssüf ki, qalanın, yaxud da onun hansısa bir tikilisinin inşası haqqında dəyərli məlumat verə biləcək bu kitabə sonralar itib batmışdır.

Tarixi dəqiq bilinməyən qalanın inşasını bəzi tədqiqatçılar eramızdan əvvələ, bəziləri 2 min il bundan əvvələ, digərləri isə Sasani hökmdarları zamanına (III-VII əsrlərə) aid edirlər. Qalanın adının çəkildiyi bizə məlum olan ən qədim mənbə "Kitabi-Dədə Qorqud" dastanıdır. Dastanın "Uşun Qoca oğlu Səkrəyin boyu"nda Əlincəqala güclü və etibarlı istehkam kimi təsvir olunur. Dastandan aydın olur ki, Əlincəqala Qara Tekfur adlı bir şəxsə məxsus olmuşdur.

XV əsr müəlliflərindən Əbu Bəkr Tihraninin "Kitabi-Diyarbəkriyyə" əsərində yazdığına görə, Abbasi xəlifələrindən Hadi (785-786) və Harun ər-Rəşidin (786-809) hakimiyyəti zamanında Qıpçaq xan Əlincəqalanı tutmuşdur. Deməli, VIII yüzillikdə Əlincəqala tanınmış qalalardan olmuşdur.

Əlincəqala haqqında orta əsr müəlliflərindən Nəsəvi (XIII əsr), Şərafəddin Əli Yəzdi (XV əsr), İohan Şiltberger (XV əsr), İosafat Barboro (XV əsr), Vinçentso Alessandri (XVI əsr), Övliya Çələbi (XVII əsr) və başqaları məlumat vermişlər. XIII-XIV əsrlərdə yaşamış tarixçi və coğrafiyaşünas Həmdullah Qəzvini Naxçıvandakı Sürməri, Taqmar, Faqnan qalalarının adını çəkərkən Əlincəqalanın adını "Alancıq" şəklində ilk yerdə qeyd etmişdir. Mənbənin məlumatına görə, həmin vaxt qala dağılmış vəziyyətdə olmuşdur.

Kastiliya kralı III Enrikonun 1403-1406-cı illərdə Teymurilər sarayındakı səfiri, diplomat və səyyah Ryui Qonzales de Klavixo Əlincəqalanı belə təsvir etmişdir: "Əlincəqala yüksək və sıldırım bir dağ üzərində qərar tutaraq divar və bürclərlə əhatə olunmuşdur. Divarların daxilində, dağ yamaclarının aşağı tərəflərində üzümlüklər, bağlar, zəmilər, otlaqlar, bulaqlar və hovuzlar vardır. Qəsr və ya qala dağın zirvəsində yerləşir".

Əlincəqalanın Azərbaycan dövlətçiliyi tarixində özünəməxsus yeri vardır. Azərbaycan feodal dövlətləri bu qalaya xüsusi diqqət yetirmiş, müharibələr zamanı ondan müdafiə məqsədləri ilə istifadə etmişlər. Əsası 1136-cı ildə Şəmsəddin Eldəniz tərəfindən qoyulan Azərbaycan Atabəyləri dövləti zamanı (1136-1225-ci illər) qalanın əhəmiyyəti xüsusilə artmış, ondan mühüm hərbi istehkam kimi hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq, dövlət səviyyəli müttəhimlərin saxlandığı zindan və sair kimi istifadə olunmuşdur. Atabəy Məhəmməd Cahan Pəhləvanın arvadı, Naxçıvanın hakimi Zahidə xatının iqamətgahı və Eldənizlərin xəzinəsi bu qalada yerləşirdi. 1225-ci ildə Xarəzmşah Cəlaləddinin hücumu zamanı sonuncu Eldəniz hökmdarı Atabəy Özbək (1210-1225) Əlincəqalaya sığınmış və orada da ölmüşdür. Hazırda Əlincəqalanın qərb tərəfində, el arasında "Özbəyin qəbri" kimi tanınan məzarın ona aid olması haqqında fikirlər vardır.

XIII-XIV əsrlərdə Hülakülərin hakimiyyəti altında olan Əlincəqala XIV əsrin II yarısından Cəlairilərin əlinə keçmişdir. Bu dövrdə Əlincəqalada təmir-bərpa işləri aparılmış, qala daha da möhkəmləndirilmişdir. Orta Asiya fatehi Əmir Teymurun Azərbaycana hücumu zamanı Cəlairi hökmdarı Sultan Əhməd dövlətin xəzinəsini, oğlu Məlik Tahir başda olmaqla ailəsini və yaxın adamlarını Əlincəqalada yerləşdirmişdi. 300-ə yaxın döyüşçüsü olan qalanın müdafiəsi Məlik Tahirə, kutvallığı (qala rəisi) isə əvvəlcə Xacə Gövhərə, onun ölümündən sonra Əmir Altuna, Əmir Altunun qətlindən sonra isə Seyyid Əhməd Oğulşamiyə tapşırılmışdı.

Əlincəqala 1387-1401-ci illərdə – 14 il ərzində Teymur qoşunlarının hücumlarına mətanətlə müqavimət göstərmiş, təslim olmamışdı. Ancaq qala daxilində başlayan ziddiyyətlər səbəbindən müdafiəçilərin qalanı tədricən tərk etməsi ilə qala boşalmış, Teymur qoşunları bundan sonra boş qalanı tutmuşdular.

1405-ci ildə Əmir Teymurun ölümündən sonra Əlincəqala yenidən Cəlairi hökmdarlarının, sonra isə Qaraqoyunlu dövlətinin əlinə keçdi. Qaraqoyunlulardan sonra, XV əsrin II yarısında onları əvəz edən Ağqoyunluların tabeliyində olan Əlincəqala 1501-ci ildə bütün Naxçıvan ərazisi ilə birlikdə Səfəvi hökmdarlarının hakimiyyəti altına düşdü. Bəzi mənbələrə görə, Səfəvilər dövlətinin banisi Şah İsmayıl uşaq vaxtı bu qalada saxlanmışdır. Səfəvilər tarixinə dair ən sanballı qaynaqlardan olan "Tarix-i aləmara-yi Abbasi" ("Abbasın dünyanı bəzəyən tarixi") əsərinin məlumatlarından aydın olur ki, Əlincəqala Səfəvilər dövründə də həm etibarlı sığınacaq, həm də zindan kimi öz əhəmiyyətini saxlamışdır. Qaynağın məlumatından görünür ki, 1578-ci ildə başlanan Səfəvi-Osmanlı müharibəsi zamanı Fərhad paşa 1583-cü ilin avqustunda İrəvanı tutduqdan sonra Çuxursəd bəylərbəyisi Məhəmmədi xan İrəvan şəhərini tərk etmiş və Naxçıvana gələrək qazilərin arvad-uşaqlarını Əlincəqalada yerləşdirmişdi.

Sonralar Əlincəqala feodal çəkişmələri və müharibələr nəticəsində tədricən öz əhəmiyyətini itirmiş, Səfəvilərdən sonra ciddi dağıntılara məruz qalmış və dağılmışdı. Buna baxmayaraq, Əlincəqala sonrakı vaxtlarda, hətta XIX yüzillikdə də öz əzəmətini qorumuş, müdafiə qabiliyyətini göstərmişdir. 1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı bu qalanın komandanı Laçın bəy altı aya yaxın bir müddətdə qalada müdafiə olunmuş, Rusiya qoşunları ilə müharibə etmişdir.

Güclü və möhkəmləndirilmiş müdafiə istehkamı olduğuna görə orta əsrlər zamanı Əlincəqalada Azərbaycanın ayrı-ayrı dövlətlərinin zərbxanaları yerləşirdi. Burada müxtəlif dövrlərdə Azərbaycan feodal hakimlərinin adından sikkələr zərb olunmuşdur. Əldə olunan sikkə nümunələri təsdiq edir ki, XIV-XVI əsrin əvvəllərində Əlincəqala zərbxanasında Hülakülərin (Elxanilərin), Cəlairilərin, Teymurilərin adından müxtəlif nominallı gümüş dirhəmlər – sikkələr kəsilmişdir.

Məhz bütün bunları nəzərə alaraq, Azərbaycan tarixində tutduğu əhəmiyyətli və şərəfli yerinə görə, xüsusilə qalanı milli-mədəni sərvət kimi qoruyub saxlamaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 11 fevral 2014-cü ildə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən, müvafiq təşkilatlar qarşısında qalanın bərpa olunması və"Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin yaradılması bir vəzifə kimi qoyulmuşdur.

Ötən il Əlincəqalada geniş abadlıq-bərpa işlərinə başlanmış, keçən müddət ərzində xeyli iş görülmüşdür. Xalqımızın məğlubedilməzlik rəmzinə çevrilmiş Əlincəqalada abadlıq-bərpa işləri başa çatdıqdan sonra bu ərazi, təxminən, 1 km şərqdə yerləşən digər bir tarixi yadigarımız, Ali Məclis Sədrinin diqqət və qayğısı ilə bir neçə il bundan əvvəl yüksək səviyyədə bərpa olunmuş Əlincəçay xanəgahı – XIX əsrin II yarısından etibarən Azərbaycanda yayılan və əsasən, xarici müdaxiləçilərə qarşı mübarizə aparan Hürufilik təliminin banisi Fəzlullah Nəiminin türbəsi ilə birlikdə əhalinin, yerli və xarici turistlərin, muxtar respublikaya gələn qonaqların ziyarət etdiyi əhəmiyyətli bir tarixi məkana çevriləcəkdir.

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# Müxtəlif mənbələrdə Naxçıvan toponimləri

*(Əvvəli qəzetin 30 yanvar tarixli sayında)*

1930-cu illərə aid zəngin informasiya mənbələri sırasında rus şərqşünası K.N.Smirnovun əsəri mühüm yer tutur. K.N.Smirnov 1936-cı ilin payızında 64 gün Naxçıvanda olmuş, Zəngəzur və Naxçıvanın əksər kəndlərini gəzmiş, ziyalılardan, muzey və arxivlərdən zəngin materiallar toplamış, Naxçıvanın tarixi və etnoqrafiyası ilə bağlı qiymətli bir əsər yazmışdır. Əsər Naxçıvanın tarixi, eyniadlı xanlığın idarə olunmasında Kəngərlilər nəslinin rolu, rus-İran müharibəsindən (1827-1828-ci illər) sonra və XX əsrin əvvəllərində Naxçıvanın ictimai-siyasi, sosial-iqtisadi vəziyyəti, əhalinin dini görüşləri və sair haqqında geniş məlumat verən çox gərəkli bir mənbədir.

Əsərdə işlənən şəxs adları Naxçıvanın yerli sakinlərinin adlarıdır. Bu adların bir qismi XVI-XIX əsrlərdə və XX əsrin əvvəllərində Naxçıvanın ictimai-siyasi həyatında yaxından iştirak edən şəxslərin, bir qismi isə müəllifin şəxsən tanıdığı, ünsiyyət yaratdığı insanların adlarıdır. Əsərdə Naxçıvanski, Kəngərlinski, Kalbalıxanov, Zülfüqarxanov, Möhsünov kimi familiyaların mənşəyi, bu familiyanı daşıyanların bir qisminin Kəngərlinski, bir qisminin Yolçuyev familiyalarını qəbul etmələri, Möhsünovların Möhsün-Sultanov, Qullar-Ağasıbəyovların Sultanov familiyalarını qəbul etmələri, həmçinin Naxçıvan şəhəri və ətraf ərazilərdə Tahirov, Qullar-Ağasıbəyov (Göynük kəndi), Murad-Əsilbəyov (Uzunoba kəndi), Şahtaxtinski, Vəzirov (Nehrəm kəndi), Camalbəyov, Möhsün-Sultanov, Yolçuyev (Naxçıvan şəhəri), Sultanov (Nürgüt kəndi), Vəkilov (Danyeri kəndi) kimi familiyaların işlənməsi haqqında maraqlı məlumatlar vardır. Bu faktlar da familiya tariximizin öyrənilməsi üçün zəngin materiallar verir.

Kitabda Kəngərli nəslinin timsalında Naxçıvan tarixinin bir çox qaranlıq səhifələri açıqlanır. Əsərdə Kəngərli tayfa və tirələri, tayfa adının mənşəyi, yayılma arealı, yaşadıqları kəndlər, Naxçıvanın ictimai-siyasi həyatı, Naxçıvan xanlığının idarə olunmasında bu tayfanın rolu və sair kimi məsələlərə aydınlıq gətirilir. Müəllif Naxçıvanda Kəngərlilərin Yurdçu, Qaradolaq, Sarbanlı, Sarvanlı, Xalxallı, Pirhəsənli, Qızıllı, Ağabəyli, Salayçı, Gəmai (Gomayıl), Qaraxanbəyli, Hacılar, Cəmşidli, Bilici, Qazılqışlaqlı, Cığataylı, Qaracalı, Kəlfirli, Ərəfsəli, Əlixanlı, Qarabulaq, Qarahəsənli, Rəyyət, Tatarlı, Bulqarlı, Didivarlı, Ələkbərli kimi 28 tayfa və tirədən ibarət olduğunu yazır.

K.N.Smirnov Hüseyn Cavidin böyük qardaşı Şeyx Məhəmməd Rasizadəyə əsaslanıb yazır ki, 1920-ci illərdə Naxçıvan ərazisində Kəngərli tayfa və tirələri ilə yanaşı, Bayat, Cavanşir, Kəngərli, Qaraqoyunlu, Cığatay, Əfşar, Şirazlı, Kəlfir, Sadaxlı, Talıbxanlı, Nadirxanlı, Səfibəyli, Gilanşahlı, Qazıxanlı, Padarlar, Qaradağlı, Hərzənli, Xoylu, Tumbullu, Nəsirli, Hətəmxanlı, Deylem, Əfqanlı, Bektaşlar, Sufilər kimi tayfalar da yaşayırmış.

K.N.Smirnov 1831-ci il məlumatına əsaslanaraq Kəngərli tayfa və tirələrinin Qoşadizə, Yamxana, Qaraçuq, Hacıvar, Baxşan (Badaşqan), Qahab, Naxışnərgiz, Nəhəcir, Xorni, Sirab, Kərbəlayı Oruc Dizə, Vayxır, Aşağı Uzunoba, Aylavar, Xalxal, Sələsüz, Şahbuz, Külüs, Mahmudoba, Mərəlik, Badamlı, Tirkeş kəndlərində yaşadıqları haqqında məlumat verir. O, Kəngərli nəslinin nümayəndəsi Şahbaz ağanın verdiyi məlumata əsasən, Xok, Qıvraq, Qarabağlar, Şahtaxtı, Yurdçu, Qabıllı, Çullu Qışlaq, Mağara Qışlaq və Kolanı kəndlərini Kəngərlilərin yaşadıqları kəndlər, Kükü kəndinin isə tamamilə Kəngərlilərin böyük bəylərindən birinə məxsus olduğunu yazır.

Əsərdə Naxçıvanın təsərrüfat həyatı ilə bağlı bir qisim çay və kanal adları da öz əksini tapmışdır. Məlum olur ki, Naxçıvançayın Qarababaçay, Küküçay, Nursçay, Qoşaçay, Cəhriçay kimi qolları, bu çaydan ayrılan Halqa arx, Sirab arxı, Turyan arxı, Dəlmə arx, Pəndami arxı, Şeydalar arxı, Şərur ərazisində Ələddin arxı, Daşarx, Ordubad ərazisindəki Vənəndçay, Gilançay kimi su obyektləri Naxçıvanın suvarma sistemində mühüm rol oynayırmış. Mənbədə adıçəkilən bu kanalların bir qisminin izi, bir qisminin isə adı yaşayır. Bu adların əmələgəlmə və yaranma yolları müxtəlifdir. Məsələn, mənbəyini Naxçıvançaydan götürüb bir neçə kənd ərazisindən keçərək Nehrəm kəndinə çəkilən arxa "Halqa arx" adı verilmişdir. Sirab kəndinin əkin sahələrinə çəkilən arxa "Sirab arxı", ərəfsəlilərə məxsus əkin sahələrinə çəkilən arxa "Ərəfsə arxı" deyilmişdir. Qeyd edək ki, XVI-XVIII əsrlərdə Naxçıvan nahiyəsində (indiki Babək rayonu ərazisində) Ərəfsaq adlı kənd olmuşdur.

Mənbədə Əshabi-Kəhf ocağı (Culfa rayonu), Pir Xamuş məscidi, Şahab məscidi, Əlixanlı məscidi, Xədiceyi Kübra ocağı (Naxçıvan şəhəri), Pir Yaqub ocağı, Seyid Hüseyn piri (Ərəfsə kəndi), Seyid Həsən piri (Göynük kəndi), Seyx Xorasan (Xanəgah kəndi), Asnı piri (Qarabağlar kəndi), Sancı daşı (Xıncab kəndi), İmamzadə (Nehrəm kəndi, Xanlıqlar, Zeyvə və Düdəngə kəndləri), Xudu-Divanə piri (Hacıvar kəndi) və sair kimi ocaq və pir adları da çəkilir ki, bu gün Naxçıvanın maddi-mədəniyyət abidələrinin öyrənilməsində bu adların çox böyük əhəmiyyəti vardır.

K.N.Smirnovun Naxçıvanın tarixi və coğrafiyası, tayfa və tirələri, ictimai-siyasi həyatı, yaşayış-məntəqə adları, əhalinin say tərkibi, təsərrüfat həyatı, əkinçilik mədəniyyəti, suvarma sistemi, dəyirmanların sayı və sairlə bağlı verdiyi məlumatlar çox geniş və əhatəlidir.

Ümumiyyətlə, müxtəlif mənbələrdə əksini tapan toponimlərin araşdırılıb üzə çıxarılması və müasir toponimik səviyyədə tədqiqi mühüm elmi əhəmiyyət kəsb edir.

**Adil BAĞIROV**
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, AMEA-nın müxbir üzvü***

## Gənclər gələcəyimizdir



*Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında 2 fevral – Gənclər Günü münasibətilə "Gənclər gələcəyimizdir" mövzusunda konfrans keçirilib.*

Konfransı giriş sözü ilə kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova açaraq keçirilən tədbirin məqsəd və mahiyyətindən danışıb.

Konfransda kitabxananın əməkdaşları Minayə Nəbisoy, Röya Mustafayeva, "Naxçıvan" Universitetinin Tələbə-Gənclər Təşkilatının sədri Nəsib Mustafayev çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Azərbaycanda dövlət gənclər siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində dahi rəhbərimiz sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakının təmin olunmasını diqqət mərkəzində saxlayıb, Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə zəngin qanunvericilik bazası və gənclər siyasətini həyata keçirən dövlət orqanları yaradılıb.

Vurğulanıb ki, müstəqil ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da gənc nəsil hərtərəfli qayğı ilə əhatə edilib. Son 20 ildə muxtar respublikamızda gənclərin sağlam, vətənpərvərlik ruhunda böyümələri, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər görülür. Bu gün muxtar respublikamızda məşğul əhalinin əksəriyyətinin gənclərdən ibarət olması, onların dövlət orqanlarında irəli çəkilməsi gənclərə göstərilən diqqət və qayğıdan, etimaddan xəbər verir. Muxtar respublikamızda gənclər üçün yeni mərkəzlərin, kitabxanaların, təhsil müəssisələrinin, olimpiya-idman komplekslərinin tikilərək, yaxud yenidən qurularaq gənclərin istifadəsinə verilməsi regionumuzda gənc nəslin asudə vaxtının səmərəli təşkil olunması, bilikli və bacarıqlı yetişməsi, intellektual səviyyəsinin artırılması baxımından böyük əhəmiyyət kəsb edir. Bütün bu işlərin görülməsində məqsəd ölkəmizdə, eləcə də muxtar respublikamızda sağlam, müasir biliklərə yiyələnmiş, dünyada ölkəmizi layiqincə təmsil edə biləcək gənc nəslin formalaşdırılmasıdır. Sevindirici haldır ki, bu məqsədlərə nail olunur.

Sonda slayd nümayiş etdirilib, sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

***"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu hər bir vətəndaşın bu sahədə hüquqlarının müdafiəsi üzrə əsas normativ-hüquqi aktlardan biridir. Bu qanundan irəli gələn vəzifələri yerinə yetirmək üçün muxtar respublikada müntəzəm olaraq ticarət obyektlərində və qapalı müəssisələrdə keyfiyyətsiz, mənşəyi məlum olmayan məhsulların satışdan çıxarılmasını təmin etmək Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi öz səlahiyyətləri çərçivəsində davamlı olaraq monitorinqlər həyata keçirir.***

## İstehlakçı hüquqlarının pozulmasının qarşısı alınır



Məqsəd ondan ibarətdir ki, saxlama müddəti bitmiş, mənşəyi bəlli olmayan məhsulların satılmasının qarşısı alınsın. Lakin təəssüflə qeyd etmək lazımdır ki, hərtərəfli dövlət dəstəyinin qarşısında bəzi ticarət obyektləri üzərlərinə düşən vəzifələri lazımınca yerinə yetirmirlər. Hələ də bir qrup təsərrüfat subyektləri istehsal və idxal etdikləri məhsulların saxlama müddətini saxtalaşdırmaq yolu ilə öz qazanclarının artırılmasına meyil edirlər.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən bildirdilər ki, bununla bağlı komitə tərəfindən əhalinin bu istiqamətdə maarifləndirilməsi üçün müntəzəm tədbirlər keçirilir. Bu işdə vətəndaşlar da fəal olmalı, sahibkarlıq subyektlərində müşahidə olunan bəzi nöqsanlara qarşı mübarizə aparmalıdırlar. Qeyd edək ki, muxtar respublikanın bütün rayonlarında komitənin işçi qrupları fəaliyyət göstərir və eyni zamanda komitədə ***545-45-09*** nömrəli qaynar xətt mövcuddur.

Ticarət şəbəkələrində satılan vaxtı keçmiş məhsulların içərisində azyaşlı məktəblilərin də aldıqları məhsullar var. Ticarət müəssisələrindən hər hansı məhsul aldıqda mütləq onun etiketindəki məlumatları oxumaq, uşaqların aldığı mallara, onların yararlılıq müddətlərinə diqqət yetirmək vacibdir.

Vaxtı keçmiş məhsulların içərisində üstünlük təşkil edən digər qrup məhsullar isə yuyucu vasitələr, ətriyyat, saç boyaları və kosmetik məhsullardır. Bəzən istehlakçılar arasında bu məhsulların yararlılıq müddətinə çox da diqqət yetirilmir. Onsuz da tərkibi kimyəvi maddələrdən ibarət olan bu məhsulların yararlılıq müddəti keçdikdə onların istifadəsi dəridə və saçda müxtəlif xəstəliklərə gətirib çıxarır.

Komitədən onu da bildirdilər ki, muxtar respublika ərazisində yerləşən ticarət obyektlərində 2014-cü ildə keçirilən monitorinqlər zamanı standartların tələblərinə uyğun olmayan 57039 manat dəyərində məhsul satışdan çıxarılaraq götürülüb. Gözləmək olardı ki, bu monitorinqlərdən sonra muxtar respublikanın ticarət obyektlərində vaxtı keçmiş, mənşəyi bəlli olmayan məhsullar olmayacaq. Ancaq cari ilin yanvar ayında aparılan monitorinq nəticəsində ticarət obyektlərindən saxlama müddəti sona çatmış 1129,4 manatlıq ərzaq və 443,9 manatlıq qeyri-ərzaq malları aşkarlanaraq satışdan çıxarılıb. Aparılan monitorinqlər zamanı diqqət yetirilən sahələrdən biri məktəbli ləvazimatları olub. Məlum olub ki, bu sahədə də keyfiyyətsiz və mənşəyi məlum olmayan, məktəblilər, xüsusən də azyaşlı məktəblilər üçün gigiyenik cəhətdən uyğun olmayan məhsullar mövcuddur. Təkcə yanvar ayı ərzində 7 adda 1298,8 manatlıq məktəbli ləvazimatları satışdan götürülüb, bunlardan 4 adda 1037,5 manat dəyərində məhsulların Bakı şəhərinə idxalçı müəssisəyə geri göndərilməsi təmin edilib.

Keyfiyyətsiz, mənşəyi məlum olmayan məhsullara qarşı mübarizə tədbirləri bundan sonra da ciddi şəkildə davam etdiriləcəkdir.

**M.MƏMMƏDOV**

*İdman xəbərləri*

## Gənclər Gününə həsr olunmuş birincilik

Naxçıvan şəhərindəki Şahmat Mərkəzində 2 fevral – Gənclər Günü münasibətilə şahmat üzrə şəhər birinciliyi keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Şahmat Mərkəzinin birgə təşkil etdiyi yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov Gənclər Günü haqqında geniş məlumat verib. Sonra Şahmat Mərkəzinin direktoru Emin Hacıyev çıxış edərək yarışın qaydaları haqda məlumat verib və yarış iştirakçılarına uğurlar arzulayıb.

Reqlamentə əsasən, yarış 6 yaş qrupunda İsveçrə sistemi üzrə keçirilib və 7 turdan ibarət olub. Birincilik uğrunda isə 80-ə yaxın zəka sahibi qüvvəsini sınayıb. Nəticəyə əsasən, oğlanlar arasında Amil Rzalı (8 yaş), Vahid Həsənli (10 yaş), Rasim Hüseynov (11 yaş), Renal Hacıyev (12 yaş), qızlar arasında isə Nazlı Hümbətova (10 yaş) və İlkanə Allahverdiyeva (12 yaş) bütün rəqiblərini məğlub edərək qalib adını qazanıblar.

Sonda hər yaş qrupunda uğur qazanan zəka sahiblərinə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim olunub.

## Ordubadda şahmat yarışı

***Ordubad rayonunda 2 fevral – Gənclər Gününə həsr olunmuş 12 yaşadək şahmatçılar arasında rayon birinciliyi keçirilib.***

Ordubad Rayon Gənclər və İdman İdarəsinin, Təhsil Şöbəsinin və Şahmat məktəbinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 20 məktəbin 70 şagirdi iştirak edib. İsveçrə sistemi üzrə keçirilən yarışda 9 yaşlı Zərrin Məmmədli qızlar arasında ən yaxşı nəticə göstərərək qalib adını qazanıb. Oğlanlar arasında isə hamını üstələyən 8 yaşlı Seyid Hüseyn qalib olub.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

## Şahbuzda "Qartal" zirvəni fəth etdi

Şahbuz Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi ümumtəhsil məktəblərinin şagirdləri arasında "Şən startlar" əyləncəli idman oyununa yekun vurulub. 2 fevral – Gənclər Gününə həsr olunmuş idman oyunu Sələsüz kənd tam orta məktəbinin idman zalında keçirilib və 9 mərhələdən ibarət olub.

Nəticəyə əsasən, Sələsüz kənd tam orta məktəbinin "Qartal" komandası birinci yerə layiq görülüb. Badamlı qəsəbə tam orta məktəbinin "Şahin" komandası ikinci, həmin məktəbin "Cəsur" komandası isə üçüncü olub. Yarışın sonunda qalib komandalara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Süfrə mədəniyyətimiz də milli dəyərlərimizdən biridir

*Qərinələrin, əsrlərin sınağından çıxmış ailə dəyərləri övladlarımızın milli ruhda tərbiyə olunması ilə yanaşı, həm də ailə üzvlərinin bir-birinə bağlılığını, səmimiyyətini, mehribançılığını yaradır. Belə dəyərlərdən biri də hər bir azərbaycanlı ailəsində gündə üç dəfə süfrə açılmasıdır. Süfrə həm də bir mədəniyyət nümunəsidir. Hər hansı bir ailədə sevginin, səmimiyyətin, qarşılıqlı hörmətin olub-olmadığını bilmək üçün o ailədə açılan süfrə başında bir dəfə oturmaq kifayətdir.*

Süfrə açmaq xalqımızın ən qədim və ən sağlam ailə dəyərlərindən biridir. Qəbul olunmuş qaydalara görə, süfrənin yuxarı başında evin böyüyü – ata oturar. Sonra oğullar və qızlar, gəlinlər əyləşərlər. Yemək çəkmək ananın ixtiyarında olar. Ana hər kəsə ailə qanununa görə yemək çəkər. İlk yemək atanın qarşısına gələr. Amma bütün yeməklər süfrəyə düzüləndən sonra yemək başlayar. Süfrənin başında əyləşən atanın hörməti, izzəti balacalara, oğullara, qızlara təlqin olunar. Hər gün süfrə başına toplaşan ailə üzvlərində daxilən duyulan bir səmimiyyət, qırılmaz tellər və qarşılıqlı hörmət hissi güclənər. Gündə üç dəfə süfrə başına yığışmaq bir evdə böyüməyin doğmalığını özündə ehtiva edir, ailə üzvlərinin bir-birinə qarşı diqqətini artırır. Hər kəsin bir-birinə qarşı hörməti özünü göstərir. Deməli, övladlarımızı başına yığdığımız süfrə həm də tərbiyə ocağıdır. Böyüyə hörmət, yemək qaydası, qarşısındakına ehtiram və bağlılıq hisləri bu ocaq başında formalaşır desək, yanılmarıq. İctimai yerlərdə, tədbirlərdə, xeyir-şər mərasimlərində danışığını bilməyən, hərəkətlərinə nəzarət etməyən bir insanı göndə və onun xoşagəlməz hərəkətləri bizi əsəbiləşdirəndə qeyri-iradi bu fikri səsləndiririk: "Bu insan normal ailə tərbiyəsi almayıb". Deməli, insanın cəmiyyətdə nümayiş etdirdiyi yüksək əxlaqi keyfiyyətlərin yaranmasında ailə dəyərlərinin böyük önəmi vardır. Amma təəssüflər olsun ki, bu gün bu ocağın da odu öləziməyə başlayıb. Şahidi oluruq ki, ailələrdə bu gün süfrə açılmasından çox, mətbəxdə hər kəsin özünəqulluq mədəniyyətinə üstünlük verilir. Ancaq hər bir ata, ana süfrə başına yığılmağı, övladlarının onlarla birgə yemək yeməyini təmin etməyə çalışmalıdır. Çünki bu, bir-birimizə sevginin, dəstək olmağın, birliyin qorunub saxlanılması deməkdir.

Süfrə böyük mədəniyyətdir. Açdığımız süfrələrdə milli yeməklərimiz, şirniyyatlarımız, turşularımız, bağlamalarımız da övladlarımıza təbliğ olunur. Qızlar ailədə qadının yerini elə bu süfrə başında öyrənirsə, oğlanlarda da kişilik xarakterinin formalaşmasına atalara göstərilən hörmətin, ehtiramın böyük təsiri olur. Onlarda bir-birinə bağlılıq yaradılır, övladlara ədəb-ərkan qaydaları öyrədilir. Belə bir ocağın sönməsinə, alovunun yox olmasına razı olmaq övladlarımızı öz əlimizlə yadlara verməyimiz deməkdir. Ona nail olaq ki, oğlumuz, qızımız oturan süfrədə gəlinimiz, nəvəmiz, nəticəmiz də əyləşsin. Bu, bizim ən böyük var-dövlətimiz olar. Həmçinin milli dəyərlərimizdən birini gələcəyimiz olan övladlarımıza vermiş olarıq.

**Şəhla NƏBİYEVA**

## I-IV sinif şagirdləri arasında mantu sınağına start verildi

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, bu il fevral ayının 2-dən 16-dək muxtar respublika ərazisində seçmə üsulu ilə müəyyən edilən yaşayış məntəqələrinin tam orta məktəblərinin I-IV sinif şagirdləri arasında mantu sınağı keçiriləcəkdir.***

Məqsəd Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən əvvəllər vərəmli xəstələrin qeydə alındığı yaşayış məntəqələrinin tam orta məktəblərində ilkin vərəm intoksikasiyalı uşaq aşkarlanarsa, onları vaxtında müayinə və müalicəyə cəlb etməkdən ibarətdir. Bunun üçün əvvəlcədən zəruri təşkilati tədbirlər həyata keçirilib, mantu sınağına cəlb ediləcək uşaqların siyahıları tərtib olunub, ərazi prinsipi üzrə bir həkim və iki tibb işçisindən ibarət xüsusi briqadalar yaradılıb.

Seçmə üsulu ilə müəyyən edilən yaşayış məntəqələrinin tam orta məktəblərinin I-IV sinif şagirdləri arasında mantu sınağına fevralın 2-də start verilib. Ə.Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim və vaksinatorları Naxçıvan şəhərinin Qaraçuq kənd həkim ambulatoriyasının əhatə etdiyi ərazilərdə yerləşən 6, 9, 13 nömrəli tam orta məktəblərdə 305 şagird arasında mantu sınağı aparıblar.

Fevralın 2-də həmçinin Şərur rayonunun Püsyan, Xanlıqlar, Mahmudkənd, Dəmirçi, Kərimbəyli, İbadulla, Qarxun, Aşağı və Yuxarı Yaycı, Babək rayonunun Nehrəm, Cəhri, Qahab, Nəzərabad, Didivar, Kəngərli rayonunun Xok, Qıvraq, Qarabağlar, Çalxanqala, Culfa rayonunun Yaycı, Göydərə, Bənəniyar, Ərəfsə, Ordubad rayonunun Sabirkənd, Azadkənd, Dəstə kənd məktəblərinin I-IV sinif şagirdləri arasında da mantu sınağına başlanılıb. Tuberkulin diaqnostikasında ərazi prinsipi üzrə kənd səhiyyə müəssisələrinin, məktəb tibb məntəqələrinin həkim və tibb işçiləri də fəal iştirak edirlər.

Sınağın nəticələri 72 saat keçdikdən sonra qiymətləndiriləcək və bu haqda Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə, Ağciyər Xəstəlikləri Dispanserinə məlumat veriləcəkdir. Nəticələr qiymətləndirilərkən müsbət və hiperergik reaksiyalı uşaqların dərin ftiziatr müayinəsinə cəlb olunmaları üçün zəruri tədbirlər görüləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*İtmişdir*

"Gülüstan" kəndli fermer təsərrüfatının (VÖEN-0700110591) möhür, ştamp və qeyd-iyyat sənədləri itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 83